

## YENİ İL

*Daha bir il tarixlərə qarışır,*
*Yaddaşa yazılır ötən günümüz.*
*Xatirə vurğunu-qaynar könlümüz*
*Soyuq ağlımızla küsüb-barışır.*

*Ziyafətlə vurur başa ömrünü*
*Köhnə ilin bər-bəzəkli son günü.*
*Bir təzə il keçir onun yerinə,*
*Bu qaydadır, çox getməyək dərinə...*

*Gələn-gedən təbiətdə iz salır,*
*Olub-keçən kitablara düşəcək.*
*Ötən gündən əməl qalır, söz qalır,*
*Tarix qocaldıqca zənginləşəcək...*

*Hər ilin öz hökmü, öz hesabı var,*
*Verdiyi, aldığı yaxşı bəllidir.*
*Doğrudur, içində yüz əzabı var,*
*Amma var olmaq da bir təsəllidir.*
*Sadəcə yaşamaq-o da nemətdir,*
*Varlıq özü sirdir, özü zinətdir.*

*Dünya nemətləri bizə tanışdır,*
*Sən eşqə qanad ver,ruhu danışdır.*
*Təzə ruh verəydi təzə il bizə,*
*Bədən sağlam ola, duyğu təp-təzə...*

*Tale üstümüzə kölgə salsa da,*
*Ürəklə dil tapmaq çətin olsa da,*
*Yaşayaq, yaradaq, könül xoş olsun,*
*Sevinc halal olsun,gülüş nuş olsun.*

*Dumanlar içindən işıq görünsün,*
*Yanıb-yaxılmadan isinsin cahan.*
*Zərif nəğmələrə, şerə bürünsün,*
*Lətafət içində yaşasın insan.*

## DE, NİYƏ GƏLİBSƏN DÜNYAYA, GÖZƏL?

*De, niyə gəlibsən dünyaya, gözəl?*
*Dünya məgər bayram, nişan, toydumu?*
*Sənin gəldiyini dünya duydumu?*
*Kimsə sevindimi, dedimi gəl, gəl?*
*De, niyə gəlibsən dünyaya, gözəl?*

*Adət-ənənəni deyən unutdum*
*Gələni sorğuya-suala tutdum...*
*Qəlbinə dəysə də xatalı sözlər*
*Ay mənə zillənən sevdalı gözlər,*
*Gəlib xoş gəlibsən, bir az yaxın gəl*
*Əlini sıxmağa uzanmış bir əl.*

*Nə bilim, nə deyim, gəlibsən bəlkə...*
*Sadəcə gül əkmək, gül dərmək üçün*
*Yara bir dəstə gül göndərmək üçün...*

*Gülü əvəz etmir nə yaqut, nə ləl*
*Eşqin elçisidir çiçəklər, güllər...*

*Eşq sənə gəl desə, qorxma, yaxın gəl,*
*Amma bir şeyi də unutma, gözəl,*
*Ruhun aynasında üzün gülməsə,*
*Dövran xoş gəlməsə, pozulsa ilqar*
*O vaxt qürub kimi saralmaq da var,*
*Tutulub, qaralıb, daralmaq da var...*

*Bir tərəfdə səhra, bir yanda Xəzər*
*De, hansı məkana gəlibsən, gözəl?*
*Bu üzümü şirin, dərdləri dərin,*
*Sökülən, tikilən doğma şəhərin*
*Tozlu havasını içmək üçünmü?*
*O taya, bu taya, bu gen dünyaya*
*Pəncərədən baxıb keçmək üçünmü?*

*De, niyə gəlibsən dünyaya, gözəl?*
*Gəlib xoş gəlibsən, bir az yaxın gəl...*
*Unutdum, sən axı hələ çox gəncsən*
*Yaxşı tanımırsan xeyiri, şəri*
*Zəhərli dişləri, kirli işləri,*
*Dünyanı sarsıdan keşməkeşləri*
*Və daha nələri, daha nələri*
*Yəqin duymamısan, düşünməmisən.*
*Sən böyük sularda xırda gəmisən*
*Sən hələ gözünlə od görməmisən...*

*De, niyə gəlibsən dünyaya, gözəl?*
*Nə bilim, gəlibsən...gəlibsən bəlkə*
*Bir kövrək könüldə iz salmaq üçün,*
*Bir şair qəlbində yer almaq üçün...*
*Gəlib xoş gəlibsən, bir az yaxın gəl*
*Şeirin tanrısıdır sevdalı gözlər.*

# ZƏNGİN VƏ YOXSUL

*Yoxsul birisi hər gün*
*Yuxusundan oyanır;*
*Yaxşıca çalışmasa,*
*İşinə alışmasa,*
*Yoxsul yaxşı qanır ki,*
*Günlərin bir günündə*
*Millətin göz önündə*
*O, acından öləcək...*
*"Xalq da ona güləcək"...*

*Zəngin birisi hər gün*
*Yuxusundan oyanır;*
*İşləri düz getməsə,*
*İşin davamı üçün*
*Sərmayəsi yetməsə,*
*Zəngin yaxşı qanır ki,*
*Günlərin bir günündə*
*Millətin göz önündə*
*İşlər çox pis olacaq*
*Ola bilsin, bir gün də*
*O, tam müflis olacaq*
*"Yerə girib öləcək*
*Xalq da ona güləcək"...*

*Zənginsən, yaxud yoxsul,*
*Ağasan, ya aciz qul,*
*İş üçün çox fərqi yoxdur*
*Həyatın ritmi budur:*
*Gün ki, gözünü açır,*
*Hər kəs işinə qaçır*
*Ağa, qul, ya hər kimdir*
*İş ona tam hakimdir.*

*Bom-boşsan, ya dolusan,*
*Xırdasan, ya ulusan,*
*Sən işinə məcbursan*
*Sən işinin qulusan...*